# "Şükriyyə" tamaşası Gürcüstanda nümayiş etdirilib

**Yazıçı Cavid Zeynallının eyniadlı əsəri əsasında hazırlanmış "Şükriyyə" tamaşası Gürcüstanın Şota Rustaveli adına Milli Dram Teatrının böyük səhnəsində tamaşaçılara təqdim olunub.**

Səhnə əsəri Akademik Milli Dram Teatrının Tbilisiyə Azərbaycan və Gürcüstanın Mədəniyyət nazirliklərinin dəstəyi ilə qastrol səfəri çərçivəsində nümayiş etdirilib.

Gürcü dilində subtitrlərlə göstərilən tamaşanı Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndələri, Gürcüstanın mədəniyyət nazirinin müavini Giorgi Mirtsxulava, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Hacı İsmayılov, azərbaycanlı icmanın üzvləri, mədəniyyət xadimləri, ziyalılar, Gürcüstanın Robert Sturua, Davit



Uplisaşvili kimi tanınmış teatr xadimləri izləyiblər.

Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatından bəhs edən səhnə əsəri maraqla və alqışlarla qarşılanıb.

Nümayiş çərçivəsində teatrın foyesində Azərbaycan teatrının tarixini əks etdirən fotolar da sərgilənib.

Qeyd edək ki, yazıçı Cavid Zeynallının eyniadlı pyesi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur.

Tamaşada Əməkdar artist Münəvvər Əliyeva (Şükriyyə), Xalq artisti Nurəddin Mehdixanlı (Fyodor Alekseyeviç), Xalq artisti Əli Nur (Süleyman bəy), Əməkdar artistlər Mehriban Xanlarova (Zöhrə), Vəfa Rzayeva (Mariya), aktyorlar Afət Məmmədova (Tamar), Rada Nəsibova (Lola), Ləman İmanova (Suğra), Əməkdar artist Şəlalə Şahvələdqızı (qadın müstəntiq), aktrisa Dilarə Nəzərova (Olqa), aktyor Rüstəm Rüstəmov (nəzarətçi), aktrisalar Aylin Həşimova (Lali), Lalə Süleymanova (Nino), Nəzrin Abdullayeva (Ayçiçək), aktyorlar Elsevər Rəhimov və Tural İbrahimov (nəzarətçilər) çıxış ediblər.

Azərbaycan.- 2025.- 16 oktyabr (№222).- S.10.